AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 4 (274), 93-108

A Z Ə R B A Y C A N   Ə D Ə B İ Y Y A T I

# Cəlil Məmmədquluzadə nəsri sosial mühit və zaman kontekstində

***Təyyar Salamoğlu***
Filologiya elmləri doktoru, professor, Əməkdar müəllim. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan. E-mail: tayyarsalamoglu@gmail.com
https://orcid.org/0000-0001-8364-1580

**XÜLASƏ**
Məqalədə "bədii mətn həqiqətlərindən çıxış" kimi müəyyənləşən konsepsiya əsasında C.Məmmədquluzadənin nəsri "Danabaş kəndinin əhvalatları" və "Poçt qutusu" əsərlərinin nümunəsində yeni istiqamətdə dəyərləndirilir. Mirzə Cəlil qəhrəmanlarına sovet metodologiyasından irəli gələn sinfi yanaşmadan imtina edilir. Yazıçının ideya mövqeyi Azərbaycan kəndlisinin avamlığını, cəhalətini təsvir predmetinə çevirməsində yox, müstəmləkə rejiminin Azərbaycan kəndindəki idarəetmə sisteminin mahiyyətinə tənqidi münasibətində axtarılır. "Danabaş kəndinin əhvalatları"ndakı Məhəmmədhəsən əmi və Zeynəb obrazları məntiqi şəkildə düşünə bilən, ictimai vəziyyəti qiymətləndirməyi bacaran, lakin rejimin zorakılıq siyasəti qarşısında geri çəkilməyə məcbur olan, çarəsiz vəziyyətə düşən XIX əsr Azərbaycan vətəndaşlarının obrazları kimi səciyyələndirilir. "Poçt qutusu" hekayəsindəki Novruzəli obrazı "qul psixologiyası"nın daşıyıcısı yox, sosial ədalətsizliyi dərk edərək, ona qarşı etiraz edən qəhrəman kimi dəyərləndirilir.

**AÇAR SÖZLƏR**
bədii nəsr, sosial mühit, zaman konteksti, sosial proseslər

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 02.10.2022
qəbul edilib: 07.12.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 4, VOL. 274, 93-108

AZERBAIJANI LITERATURE

# Jalil Mammadguluzadeh′s prose in the context of social environment and time

***Tayyar Salamoghlu***
Doctor of Philology Sciences, Professor, Honorable teacher. Azerbaijan State Pedagogical University. Azerbaijan. E-mail: tayyarsalamoglu@gmail.com
https://orcid.org/0000-0001-8364-1580

**ABSTRACT**
Based on the concept defined as "exit from the realities of the literary text" in the article, the prose of J.Mammadguluzadeh is evaluated in a new direction through the example of "Danabash kendinin ehvalatlari" and "Pocht qutusu". The class approach derived from the Soviet methodology to the heroes of Mirza Jalil is rejected. The writer's ideological position is sought not in turning into an object of the description of the ignorance of the Azerbaijani peasantry, but in the critical attitude of the colonial regime to the essence of the system of governance in the Azerbaijani village. In the "Danabash kendinin ehvalatlari", the images of Uncle Mahammad Hasan and Zeynab are described as images of 19th-century Azerbaijani citizens who think rationally, and evaluate the social situation, but are forced to retreat in the face of the regime's violent policy. The image of Novruzali in the story "Pocht qutusu" is considered not as a carrier of "slave psychology" but as a hero who noticed social injustice and opposed it.

**KEYWORDS**
artistic prose,
social environment,
timecontext,
social processes

**ARTICLE HISTORY**
Received: 02.10.2022
Accepted: 07.12.2022

## Giriş / Introduction

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının həmişəyaşar, görkəmli nümayəndələrindən biridir. 2019-cu ildə ölməz sənətkarın anadan olmasının 150 ili tamam oldu. "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda deyilir: "Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır".

Ölkə başçısının bu Sərəncamı Azərbaycan tənqid və ədəbiyyatşünaslığını yeni, konseptual elmi mövqelərə istiqamətləndirir, Mirzə Cəlil irsinə qarşı mətbuatda və sosial şəbəkələrdə səslənən bəzi inkarçı mülahizələrin heç bir elmi əsasa malik olmadığını, sovet ideologiyasının təsiri altında ortaya çıxan ədəbiyyatşünaslıq təhlillərindən güc aldığını sübut etməyin, eyni zamanda, bu yaradıcılığın həqiqi milli məzmununu xalqımıza çatdırmağın vaxtı çatdığını bir vəzifə olaraq qarşıya qoyur.

**Məmmədhəsən əmi obrazı bədii mətndə və ədəbiyyatşünaslıqda**

Ədəbiyyatşünaslığımız Məhəmmədhəsən əmini – "Danabaş kəndinin əhvalatları" əsərinin bu məşhur qəhrəmanını avam, vətəndaşlıq düşüncəsindən məhrum bir adam hesab edir və bunun əsas səbəbini onun dini inancında axtarır. Məhəmmədhəsən əmi "şəriətin onsuz da artığa, canlı cənazəyə, ənənəvi şikəstə çevirdiyi" adam kimi xarakterizə olunur [3, s.181]. Bəli, əsərin mətni də təsdiq edir ki, "bu kişi artıq dindar adamdı". Məhəmmədhəsən əminin "artıq dindar adam olması" onun nə mənliyini, nə şəxsiyyətini, nə də sosial səviyyədə düşünmək qabiliyyətini əlindən almamışdır. Əksinə, onun saflığı, əliaçıqlığı, gözütoxluğu, insanlara yaxşılıq etmək istəyi, ailəcanlılığı milli xarakterin təbiəti ilə birbaşa bağlı olsa da, İslam dininə ürəkdən bağlılığının da burada ciddi təsiri vardır. Məhəmmədhəsən əminin dünya işlərindən ayrı düşməsi müvəqqəti xarakter daşıyır. Bu, onun psixoloji cəhətdən ziyarətə getməyə köklənməsi ilə bağlıdır. Onun "dünya malına əsla və qəta talıb" olmaması maddi dünyadan büsbütün əl üzməsi, fəaliyyətdən və hərəkətdən qalmasının əlaməti deyil, çarəsizliyinin və bu çarəsizliyə qarşı gözütoxluğunun, nəfsinə hakim ola bilmək kimi insani keyfiyyətlərinin əlamətidir.

Məhəmmədhəsən əmidə sosial həyatı dərk etmək və dəyərləndirmək, baş verənlərdən nəticə çıxarmaq qabiliyyəti varmı? Başqa sözlə, Məhəmmədhəsən əmi düşünə bilən, yoxsa düşünməyən qəhrəmandır? Bu suala cavab vermək vacib şərtdir, çünki onun bir şəxsiyyət kimi özünütəsdiqi bu sualın cavabından asılıdır.

Müəllif ədəbiyyatşünaslıqda eynitipli qəhrəmanlar kimi səciyyələndirilən Məhəmmədhəsən əmi və Novruzəli obrazlarını (“Poçt qutusu”) oxşar situasiyalarda imtahana çəkir. Hər iki obrazın ictimai düşüncəsi və sosial fəallığı ictimai ədalətsizliyə – katdanın hər ikisinin başına gətirdiyi müsibət və zülmlərə reaksiyalarında sınağa çəkilir. Sosial ədalətsizliyə və vətəndaş aktivliyinə görə Məhəmmədhəsən əmi Novruzəlidən fərqlənir. Buna baxmayaraq Məhəmmədhəsən əmi Novruzəlinin sələfi statusunu qazana bilir. Onun sosial aktivlikdə Novruzəli ola bilməməsinin özündə də tarixi qanunauyğunluqlar var. Azərbaycan kəndində gedən ictimai hərəkatın təkamülü, milli oyanışın formalaşması baxımından Məhəmmədhəsən əmi XIX əsrin 90-cı illərini, Novruzəli isə yeni əsrin ibtidasını, milli azadlıq hərəkatının ərəfə dövrünü təmsil edir. Bu mənada onları bir-birini təkrar edən qəhrəmanlar kimi təqdim etmək tarixi qanunauyğunluq nöqteyi-nəzərindən də yanlışdır.

“Əhvalatlar”da şəriətlə şəriət adından alver edənlər arasındakı fərqin bədii əksi müəllifin estetik konsepsiyasının tərkib hissəsi kimi çıxış edir. Əslində, müəllifin tənqidinin din, şəriət adından alver edənlərə qarşı çevrildiyi əsərdə bütün təfsilatı ilə əks olunur. Elmi ədəbiyyatda, bir qayda olaraq, Zeynəbin faciəsində şəriətin həlledici rolu önə çəkilir; Xudayar bəyin, qlavanın, kənd mollasının bilavasitə şəriət hökmü ilə Zeynəbi faciəyə sürüklədikləri əsas gətirilir. Halbuki bədii mətndə qazının şəriət hökmlərini saxtalaşdırdığı təfsilatı ilə əks olunur, həqiqi şəriət qanunlarında qadının hüququnun qorunması, onun istəyinin əsas şərt olması qazının öz dilindən çıxan sözlərdə əksini tapır: “ – Əzizim, qəndi və çayı gətirərsən, qoyarsan buraya, sonra gedib üç-dörd nəfər kəndinizin əhlindən gətirərsən mənim yanıma. Amma gərək o şəxslər hamısı sənin rəfiqlərindən ola. Onların birisi gəlib mənə deyər ki, həmin övrət mənim anamdır. Bu şəxsə, yəni sənə gəlmək istəyir və məni də bu xüsusda vəkil eləyibdi. Qeyriləri də şəhadət verərlər. Vəssalam. Mən də siğəni oxuram, qurtarıb gedər”.

Qazının sözləri müəllif mövqeyində şəriətlə şəriət adından alver edənlərin fərqləndirilməsi zərurətini önə çəkir. Bu zaman artıq qazı sözün birbaşa mənasında dinin və şəriətin təmsilçisi rolundan çıxır, qazılıq kürsüsündə oturdulmuş məmur kimi siyasi rejimi təmsil edir. Onun “hökm”ünün bütün hökumət məmurlarının yanında keçərli olması da bunu sübut edir. Buna görə də, cəmiyyətdə baş verən sosial bəlaların (povestdə konkret olaraq üç evdə qurulan matəmin) səbəbkarı kimi şəriətin ittiham edilməsi nə obyektiv tarixə, nə də estetik həqiqətə uyğun gəlir.

Müəllifin tənqid ittihamı qazının saxtakarlığından çox, məhz İslam şəriətinə ləkə gətirənlərin siyasi rejim tərəfindən səlahiyyət sahibinə, dinin təmsilçisinə çevrilməsinə yaratdığı sosial şəraitə qarşı istiqamətlənir.

Azərbaycan ədəbiyyatşünaslığında bir çox hallarda estetik həqiqətlərlə elmi həqiqətlərin üst-üstə düşməyib bir-birini tamamlamama səbəbi obraz və yazıçının dünyagörüşü ilə bərabər tədqiqatçının dünyagörüşü arasındakı fərqlə də bağlıdır. Sovet dövrünün ədəbiyyatşünası dünyagörüşü etibarı ilə materialist, onun təhlil predmetinə çevirdiyi əsərlərin qəhrəmanları (burada Mirzə Cəlilin qəhrəmanları) isə idealistdir. Bu isə o deməkdir ki, Məhəmmədhəsən əminin qəzavü-qədərə, alın yazısına inamında qeyri-adi heç nə yoxdur. Ancaq prinsipial məsələ bu deyil. Prinsipial məsələ kimin məntiqinin daha həyati olmasıdır: ədəbiyyatşünaslığın, yoxsa Məhəmmədhəsən əminin?

"Əhvalatlar"ın qəhrəmanı haqqında mülahizə yürüdərkən onun düşüncələri, həyati qənaətləri sonadək elmi təhlil müstəvisinə gətirilmir. Halbuki, Məhəmmədhəsən əminin gördüyü haqsızlıqlara, düşdüyü müsibətli vəziyyətə açıq etiraz edə bilməməsi son dərəcə həyati bir məntiqlə bağlıdır. O, bu haqsızlıqlara qarşı müqavimətini içində boğanda gerçəkliyin öz məntiqindən çıxış edir. Bu məntiq kifayət qədər əsaslıdır. O, özünün də, Xudayar bəyin də gücünü bilir, arxasızlığını, Xudayar bəyin arxasında dayananların kimliyini dəqiq təsəvvür edir. Məhəmmədhəsən əmi əlacsız qalıb "nəçərnik divanxanası"na üz tutanda şikayət edib-etməmək qərarı onun düşüncəsini bütün varlığı ilə məşğul edir. Son nəticədə özünün də, Xudayar bəyin də gücünü düşüncə tərəzisinə qoyub çəkir. Nəticədə Xudayar bəyin gücü qat-qat ağır gəlir. O, bizi "şikayət etməmək" qənaətində haqlı olduğuna inandırır. Yazıçının Məmmədhəsən əminin düşüncə monoloqu kimi təqdim etdiyi aşağıdakı parça tənqidi realizmin "kiçik" qəhrəmanının həqiqətən düşünmək, öz vəziyyətini, reallığı dürüst qiymətləndirmək bacarığına malik olduğunu göstərir: "Axırda üz qoydu nəçərnik divanxanasına səmt. Məhəmmədhəsən əmi o səbəbə nəçərnik divanxanasına gəlmir ki, şikayət eləsin Xudayar bəydən, ya karvansaraçıdan. Xeyr, Allah eləməsin. Məhəmmədhəsən əmi dinc adamdı. Şər ilə, şıltaq ilə arası yoxdu. Bir də ki, indiki əsrdə şikayət eləməkliyin özü elə bir çətin işdi. Ondan ötrü ki, şikayətçi gərək yəqin eləyə ki, şikayəti möhkəm eləyə biləcək. Şikayət də şahidnən möhkəm olur. Amma Məhəmmədhəsən əminin şahidi yoxdu. Ondan ötrü ki, pulu yoxdu. Söz yox, Xudayar bəyin də pulu yoxdu. Söz orasındadır ki, Xudayar bəyin əlində yekə dəyənək var. Nə vaxt kefi istəyir qaldırır, nə vaxt kefi istəyir yendirir. Danabaş kəndində bu yekəlikdə zoğal dəyənəyinin hörməti heç pulun hörmətindən az deyil. O ixtiyar ki dəyənəkdə var, bəlkə pulda yoxdu. Bu səbəblərin

hamısı və bir də o səbəbə görə ki, Məhəmmədhəsən əmi əslində fəqir adamdı, bu səbəblərin hamısına görə Məhəmmədhəsən əmi heç vaxt Xudayar bəydən şikayət eləməzdi".

Ədəbiyyatşünaslıq "əhvalatlar"ın baş verdiyi mühitdə dəyənəyin qeyri-adi funksiya daşıdığını, qeyri-adi güc olduğunu etiraf edir: "Feodal dəyənəyi burada artıq kapitalist bir məqsədə xidmət edir: mümkün qədər çox var-dövlət, kapital, sərvət toplamaq! Bu faktda kənddə gedən maraqlı ictimai proses öz əksini tapır: kəndlilikdə təbəqələşmənin, kənd "kulakı"nın əmələ gəlməsi! Kapitalistləşməyə doğru meyl" [3, s.182]. Lakin ədəbiyyatşünaslıq çox vaxt "dəyənəyin" simvollaşdırdığı ictimai-siyasi prosesləri müəllif müşahidəsinin məhsulu kimi təqdim edir. "Dəyənək"lə simvollaşan "güc"ün sosial münasibətlərdə oynadığı rolu Məhəmmədhəsən əminin bütün dərinliyi ilə başa düşməsi nəzərə alınmır. Çünki bu halda Məhəmmədhəsən əmilər ədəbiyyatşünaslığın tənqidi realizmdəki "xırda adam" üçün müəyyənləşdirdiyi resept-qəlibdən çıxır. Halbuki, bədii mətndə Xudayar bəyin gücü və gerçəklikdə "dəyənəyin" oynadığı rolla bağlı əsərdə əksini tapan mülahizələr açıq-aydın Məhəmmədhəsən əminin daxili monoloqu, düşdüyü ağır vəziyyətlə bağlı öz-özünə vərə-vürdü kimi təqdim edilir. Hətta bu mülahizələri müəllif mövqeyinin ifadəsi kimi qəbul etsək belə, yenə də Məhəmmədhəsən əminin "bu səbəblərin hamısına görə" şikayət etməkdən imtina etməsi ilə bağlı əsərdə özünə yer alan informasiya müəllifin bu qənaətləri qəhrəmanın başından keçən düşüncələr kimi təhkiyə etdiyini sübut edir.

Tənqidi realistlərdə milli varlığa istiqamətlənmiş və "tənqid, yaxud gülüş yolu ilə islah etməklə dirçəlişə və mənəvi oyanışa nail olmağa" hesablanmış tənqid sosrealist tənqidi düşüncədə milli varlığın tarixi xarakterinə inkaredici münasibətlə əvəz edilirdi [Həbibbəyli İ. Bakı, 2007]. Buna görə də realizmin yeni mərhələsində tənqidin ifşa və inkar pafosu bilərəkdən, həm də şişirdilərək önə çəkilir, təsdiq pafosu isə büsbütün inkar olunurdu. Məhz ədəbiyyatşünaslığın bu istiqamətdəki ardıcıl və məqsədyönlü siyasəti bəzən geniş oxucu kütləsinin böyük sənətkarları düzgün başa düşmələrini çətinləşdirirdi.

Məhəmmədhəsən əmini XIX əsrin son dövrü üçün Azərbaycan kəndlisinin tarixi xarakteri kimi səciyyələndirsək, onun baş verən sosial proseslərə münasibətini də təsəvvür etmək olar. Ədəbi qəhrəmanın həyati proseslərin iştirakçısı olan insandan əsas fərqi odur ki, onun psixoloji dünyası və daxili düşüncələri bilavasitə bədii təhlilin predmetinə çevrilir, əməli işlərilə bərabər, düşüncə dünyasındakı "hərəkət"ləri, psixoloji yaşantıları ilə birlikdə dəyərləndirilir.

Povestdə Məhəmmədhəsən əminin öz eşşəyini dinməz-söyləməz Xudayar bəyə verməsi və həlledici məqamda onun "nəçərnik"ə şikayət etməkdən çəkinməsi mütilik, qul psixologiyasının təzahürü kimi düşünülə bilər. Lakin bu yalnız ilk baxışda belədir və obrazın təbiətinin üst qatdan qavranılmasıdır. Halbuki, qəhrəmanların daxili aləminə elmi nüfuz oradakı gərgin psixoloji yaşantıları, düşüncə təlatümlərini görməyə imkan verir. O zaman Məhəmmədhəsən əminin zahirən sakit və məzlum təbiətinin əsl mahiyyətini təsəvvür etmək olardı. Xudayar bəyin eşşəyi apardığı məqamlarda Məhəmmədhəsən əminin düşündükləri bu mənada səciyyəvidir: "Mən indi ta gedib, eşşəyi ondan alıb, kişini yarı yolda qoya bilmərəm ki! Kişi genə, necə olsa, ağsaqqaldı. Adamın genə işi düşər. Necə ola bilər ki, bir eşşəkdən ötrü hakimi özündən incidəsən?". Hərgah ki, bu tip düşüncənin özündə də gerçəkliyi real qiymətləndirmək, "hakim"ə tənqidi münasibət, eşşəyi verməyəcəyi təqdirdə başına gələnləri, dumanlı şəkildə olsa da, təsəvvür etmək kimi mənalar gizlənib. Məhz bu məna potensialları ilə Məhəmmədhəsən əminin daxili düşüncəsində psixoloji mahiyyətli fırtınaqabağı sakitlik aşkar sezilir. Eşşəyin taleyinin "düyün"ə düşməsi məlum olanda və bu "düyün" Məhəmmədhəsən əminin "ailə dramı"nı gerçəkləşdirəndə xarakterin daxilində bir təlatüm başlayır. Yazıçı obrazın daxili gərginliyini bütün həyatiliyi ilə təsvir edir: "Qeyzindən yazıq kişinin alnından tər axırdı". "Alnından axan tər" daxili etirazın fırtınaya çevriləcək ilk təzahürü idi. Bu etiraz özünə və hərəkətlərinə kəskin tənqidi münasibətdə, özünütəhlildə bir qədər də güclənir: "Eh, vallah, mən bir qəpik pula dəymərəm. Mən, doğrudan da, kişi deyiləm ki! Arvad məndən yaxşıdır". Artıq bu cür düşüncə, baş verənlərə daxili, ruhi etiraz son nəticədə mənəvi oyanışa gətirib çıxarır. Qeyzindən alnından axan tər, özünün kişi olmamasını dilə gətirməsi, "arvad məndən yaxşıdır" etirafı Məhəmmədhəsən əminin daxilindən püskürən qəzəb vulkanıdır ki, bu vulkan onun içindəki bütün mütiliyi, ehtiyatkarlığı – hakimə qarşı çıxmamaq düşüncəsini büsbütün silib atır. Həzrət Abbasa ünvanladığı məktub və bu məktubu çavuşa verərkən ağlaya-ağlaya dedikləri, heç də sovet ədəbiyyatşünaslığında iddia edildiyi kimi, onun fanatizminin və mütiliyinin əlaməti deyil. Məhəmmədhəsən əminin hərəkətində və sözlərində "ağlada-ağlada güldürən, güldürə-güldürə ağladan" müəllifin ağlaya-ağlaya ayılan, ayıldıqca özünü dərk edən, dərk etdikcə daha real düşünən qəhrəmanının etiraz səsini eşidirik:

– Apar, qardaş, apar... O ərizəni apar... Apar Həzrət Abbasa. Apar... Mən gedə bilmədim... Gedə bilmədim. Qoymadılar. Məni qoymadılar... Mənim eşşəyimi oğurladılar. Yedilər. Satdılar. Apar ərizəmi, apar. Mən gedə bilmədim...

Məhəmmədhəsən əmi bizi dünyəvi hakimə yox, Həzrət Abbasa şikayətinin məntiqinə inandırır. Onun məntiqi dünya hakimlərinin qanunu və şikayətçinin haqqını deyil, öz şəxsi mənafelərini qoruduqları real düşüncələrində açılır. Məhəmmədhəsən əmi zamanın reallıqları və amansızlığını dəqiq təsəvvür edir. Onun Xudayar bəyə güzəştinin və ondan şikayət etməkdən çəkinməsinin məntiqi kifayət qədər həyatidir. Məhəmmədhəsən əmi düşünür ki, eşşəyi verməsəm, o da: "Günün günorta çağı gəldi, nahaq yerə yaxaladı ki, bu qədər iştirafındı ver, onda bəs necə olsun?". Etiraf edək ki, kifayət qədər həyati məntiqdir və XIX əsr çar üsuli-idarəsindəki reallıqları əks etdirir. Müəllif Məhəmmədhəsən əminin düşüncələrində çar üsuli-idarəsindəki hərc-mərclik, miqyassız özbaşınalıqlar haqqında təsəvvürlərimizi get-gedə dərinləşdirir. Qəhrəmanın düşüncələrində özünə yer alan "eşşəyi verməsəm, onda dəxi kənddə baş gəzdirmək olar?" sualında, reallıqla hesablaşmaq məcburiyyəti ilə birlikdə, ona güclü etiraz jesti də sezilir.

**Məntiqi sualın məntiqi cavabı**

Xudayar bəy Zeynəb xəttində açılır. "Əhvalatlar"a Zeynəb ancaq qadın taleyinin bədii təcəssümü kimi daxil olmur. Bu obraz sadəcə qadın hüquqsuzluğunu, XIX əsr gerçəkliyində qadına yaşadılan acı taleyi simvollaşdırmır. Yeri gəlmişkən, bunu da xüsusi vurğulamaq lazım gəlir ki, XIX əsr qadınının hüquqsuz taleyi məsələsinin ədəbiyyatşünaslıqdakı elmi təfsirinin məntiqilə "Əhvalatlar"ın bədii məntiqi heç də üst-üstə düşmür. Məsələn, ədəbiyyatşünaslıq qadın hüquqsuzluğunu, onlara edilən zülmü çox vaxt milli həyat problemləri, feodal-patriarxal mühitin və şəriətin qanunları ilə bağlayır. Lakin "Əhvalatlar"da qadın problemi milli həyat və şəriət qanunları müstəvisində deyil, siyasi rejimin qadın azadlığını tanımaması müstəvisində qaldırılır. Danabaş kəndində üç evdə qurulan matəmin hər biri "Xudayar bəyin baisliyi" timsalında siyasi rejimin cəmiyyət qanunları ilə birbaşa bağlanır. Müəllif İzzətin də, Zeynəbin də, müəyyən mənada, hətta Şərəfin də milli həyat qanunları çərçivəsindəki xoşbəxt həyatının siyasi rejimin bu həyata nüfuzundan sonra pozulduğunu önə çəkir. Hər şeyin pulla satın alınması, hər şeyin "zoğal dəyənəyi"nin hökmünə tabe edilməsi milli həyat qanunlarından güc almır, çar hökumətinin idarəetmə sistemindəki özbaşınalıqların nəticəsi kimi meydana çıxır. Buna görə də Zeynəb problemi ictimai-siyasi sistem çərçivəsində qadına olan münasibət kimi şərh edilməlidir. Bu səbəbdən də əsərdəki Zeynəb xətti yalnız qadın məsələsi kimi deyil, siyasi rejim daxilində milli cəmiyyət insanının vətəndaş hüquqları müstəvisində araşdırılmalıdır. Çünki povestdə məsələ məhz bu istiqamətdə estetik həllini tapır. Əsərdə Zeynəb həm İzzət və Şərəflə, həm də Məhəmmədhəsən əmi ilə eyni taleyi

bölüşür. Məhəmmədhəsən əminin tale yolu həm də Zeynəbin tale yolunda davam etdirilir. Bu obrazlar assosiativ müqayisə planında milli cəmiyyətin çar üsuli-idarəsinə, onun idarəetmə sisteminə fərqli formalarda etirazlarını ifadə edirlər. Hər ikisi məhz bu ifadə planında bir-birinin davamı olan obrazlar kimi meydana çıxır. Məhəmmədhəsən əminin etirazlarında bir passivlik (şərti mənada) duyulsa da, Zeynəbin etirazları açıq xarakter daşısa da, nəticədə hər ikisinin taleyi eyni olur. Məhəmmədhəsən əminin düşünüb etmədikləri ilə Zeynəbin başına gələnlərin məntiqi eyni nöqtədə birləşir və reallığın acı həqiqəti kimi təsdiq olunur. Zeynəbin başına gələn faciələr Məhəmmədhəsən əminin məntiqinin reallığını üzə çıxarır. Zeynəb vəziyyəti real qiymətləndirə bilmir. O, milli həyat və şəriət qanunlarına, insanlıq qanununa istinadən hərəkət edərək haqlı olduğuna inanır. Çünki cəmiyyətin bu qanunlardan tamam kənar bir qanunla – pulun və "zoğal dəyənəyi"nin hökmü ilə idarə olunduğunu bilmir. Ona görə də son nəticədə hakim qüvvələr onun qarşısına Məhəmmədhəsən əminin dəqiq təsəvvür etdiyi real həyat qanununu çıxarırlar: Qlava Kərbəlayı İsmayıl üzünü Zeynəbə tutaraq deyir: " – And olsun o bizi yaradana, əgər naz-qəmzə eliyəsən, mən səni qoymaram ki, bu kənddə baş dolandırasan".

Müəllif mövqeyində də cəmiyyətdə işlək olan "qanunlar" göstərilir, Zeynəbin təslimindən başqa bir yolunun olmadığı dilə gətirilir. Müəllif mövqeyində Zeynəbin qarşı durduğu qüvvələrin Zeynəblərin (Məhəmmədhəsən əmilərin) qüvvəsindən qat-qat güclü olduğu əks olunur. Məsələlərə tam realist, həyat həqiqətlərinə (burada sosial həyat) uyğun həll verilir. Müəllif Məhəmmədhəsən əmilərin, Zeynəblərin etirazını o həddə qədər gətirə bilir ki, onların gücü ancaq bura qədər çatardı. Beləliklə, Məhəmmədhəsən əmi və Zeynəb Mirzə Cəlilin nəsrinə "etirazçı qəhrəmanlar" kimi daxil olur və eyni taleyi yaşayırlar.

**"Poçt qutusu" qəhrəmanının tarixi və estetik mahiyyəti**

Azərbaycan ədəbiyyatşünaslığı poçtxananın nə olduğunu bilmədiyi və ağasına sədaqətlə qulluq etdiyi üçün Novruzəlini ("Poçt qutusu") avam və nadan, qul psixologiyalı, sosial düşüncədən məhrum obraz kimi xarakterizə etmişdir. Vəli xan obrazından isə varlı təbəqəni təmsil edən istismarçı tip kimi söhbət açılmış, əsərin ideya-məzmunu bütövlükdə sinfi münasibətlər kontekstində şərh olunmuşdur.

Halbuki bədii mətn bizə Novruzəli və Vəli xan obrazlarına, onlar arasındakı münasibətlərə fərqli müstəvidə yanaşmağa imkan verir. Düşünürük ki, bu yanaşma obrazların xarakterini və onlar arasındakı münasibətlərin tarixini, estetik mahiyyətini daha obyektiv şəkildə meydana çıxarır.

XX əsrin ilk illərində Azərbaycanda milli ictimai düşüncənin təşəkkülü və təşkilatlanması prosesi gedirdi. Milli burjuaziya istər sənaye, istərsə də kənd

təsərrüfatında öz yerini möhkəmləndirdikcə çarizmin müstəmləkə siyasətinə müqaviməti də güclənirdi. Bu baxımdan kənd burjuaziyası ən geniş mənada Azərbaycan kəndlisinin müdafiəçisi və arxası rolunda çıxış edirdi. Əlbəttə, kənd burjuaziyası və kəndlisi müxtəlif sosial təbəqələri təmsil edirdilər və onlar arasında iqtisadi mənafe əksliklərindən qidalanan müəyyən ziddiyyətlərin, qarşıdurmaların olması qaçılmaz idi. Lakin milli ictimai şüurun inkişafı sürətləndikcə kənd burjuaziyası və kəndli müstəmləkə zülmünə qarşı çıxır, milli özünüdərk və təsdiq kontekstində birləşə bilir, birincilər ikincilərin öz hüquqlarını dərk etməsi, çar üsuli-idarələri qarşısında öz mənafelərini müdafiə edə bilməsinə maraq göstərirdilər.

"Poçt qutusu"nda cərəyan edən hadisələr, bu hadisələrdə əsas qəhrəman rolunda çıxış edən Novruzəli kənddə gedən sosial proseslərdən, kəndlinin öz hüququ uğrunda mübarizəsini gerçəkləşdirən milli hərəkatdan kənarda deyildi. Fikrimizcə, Novruzəli oxucuya konkret tarixi şəraitin estetik ifadəsi olaraq Azərbaycan kəndlisinin ictimai şüurunda yaranan oyanışın təmsilçisi kimi təqdim olunur. Lakin obrazın estetik funksiyası bununla məhdudlaşmır.

Ədəbiyyatşünaslıq Novruzəli obrazını bu qədər ağır ittihamlarla yükləyəndə onun istinad etdiyi estetik həqiqət nədən ibarət olur? Novruzəliyə qarşı yönəlmiş bütün ittihamlar öz başlanğıcını qəhrəmanın poçt qutusunun nə olduğunu bilməməsi ilə bağlıdır. Heç şübhəsiz, poçt qutusu cəmiyyətin mədəni tərəqqi yoluna çıxmasının əlamətlərindən biridir. Lakin mədəni tərəqqinin bütün vasitələri hər yerə həmişə eyni zamanda çatmır. Radionun, televiziyanın və başqa informasiya mənbələrinin olmadığı bir vaxtda bu, tamamilə qanunauyğun bir prosesdir. Novruzəli cəmiyyətdə gedən texnoloji proseslərdən kənarda qalan ucqar bir kəndin sakinidir. Bu və ya başqa formada özü də buna işarə edir: "Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?". Ədəbiyyatşünaslıq kiçik bir erməni uşağının, qoca rus qadınının bu texniki prosesi öz məişət həyatının tərkib hissəsinə çevirməsini qeyri-millətlərin "seyrə balonlarla çıxması", bizim millətin geridə qalması hesab edərək, qəhrəmanın "baş töhməti"nə çevirir.

"Poçt qutusu" hekayədir. Hekayədə isə hadisələrin təfsilatı yox, detallar, ştrixlər əsasdır. Müəllif öz niyyət və məramını bu detal və ştrixlər əsasında irəli sürür. Bu mənada erməni uşağının, rus qadınının poçt qutusu ilə rəftarı, doğrudan da, mədəni tərəqqinin əlamətidir. Onların poçt qutusundan düzgün istifadə etməyi bacarması tam təbiidir. Çünki onlar mədəni inkişafın içindədirlər. Novruzəlinin poçt-

dan, teleqrafdan xəbərsizliyi cəhalətin, nadanlığın, avamlığın əlaməti yox, mədəni geriliyin əlamətidir. Ancaq erməni uşağı da, rus qadını da şəhərdə yaşayır, Novruzəli isə ucqar bir kənddə. Bu səbəbdən kəşfi və tətbiqi çox da uzaq zamana aid olmayan poçt və teleqraf haqqında məlumatsızlıq Novruzəlinin düşünməyən və hərəkətsiz, ictimai cəhətdən "çəkisizlik" şəraitində yaşayan bir qəhrəman olmasının dəlili ola bilməz. Hekayədə, geniş mənada mədəni tərəqqi baxımından xalqları qarşı-qarşıya qoymaq tendensiyası yoxdur. Çünki əsərdə Novruzəlinin şəhərdə yaşayan soydaşlarının poçt qutusu ilə rəftarına, mədəni tərəqqinin poçt, teleqraf kimi vasitələrindən istifadəsinə kifayət qədər geniş yer ayrılıb. Novruzəlidən fərqli zümrəyə mənsub Vəli xan, hətta Novruzəli ilə eyni ictimai təbəqədən olan nökər də poçtdan, teleqrafdan istifadəni adi məişət işi kimi qəbul edir. Novruzəlinin poçt qutusu ilə rəftarı nə qədər komik situasiyada təsvir edilib, hekayənin süjet xəttində nə qədər iri planda təqdim edilsə də, bu detal eyni zamanda millətin maariflənməsi, mədəni tərəqqisinin zəruriliyini şərtləndirsə də, ancaq Novruzəlini "ictimai məzmun cəhətdən "müflis" elan etməyə" əsas vermir. Bəlkə hekayədə "Novruzəli də diksinməli, hərəkətə gəlməli"dir qənaətinə də yer var, ancaq onu "yuxulayan, yatan qəhrəman" elan etməyə heç bir əsas yoxdur [3, s.179].

Novruzəlinin boynuna qoyuruq ki, o, "düşünməyən qəhrəmandır", "narahat yox, narazı yox, razı qəhrəmandır! Üsyan edən, fəryad edən yox, yuxulayan, yatan qəhrəmandır. Ədalət, həqiqət, haqq, nahaqq haqqında heç düşünmək istəməyən qəhrəmandır" [3, s.178].

Tənqidi realizmdə aparıcı qəhrəman tipi kimi qəbul edilən "kiçik adam"a verilən bu xarakterik xüsusiyyətlər ədəbiyyatşünaslığımızda indiyə qədər heç bir etiraz doğurmamış, yeni realizm tipinə məxsus qəhrəmanın əsas təyinedici əlamətləri kimi birmənalı qəbul olunmuşdur. Lakin Novruzəliyə – "kiçik qəhrəman"ın modelinə verilən bu xarakteristika bədii mətnin həqiqətləri ilə təsdiq olunurmu? Xeyr, təsdiq olunmur.

**Novruzəli şikayətçi qəhrəman statusunda**

Bir janr kimi hekayədə hadisələrin təfsilatlı təsvirinin əsas olmadığını, hadisəyə işarə edən səciyyəvi detalların – ştrixlərin süjetin inkişaf dinamikasını təmin edən, müəllif mövqeyini gerçəkləşdirən, obrazın xarakterini açan uyğun vasitə, prinsip olduğunu artıq qeyd etmişik. Bu prinsiplə yanaşanda hekayədə Novruzəlini razı yox, yuxulayan, yatan yox, narazı, narahat və hətta üsyan edən, fəryad edən bir qəhrəman kimi səciyyələndirməyə əsas verən ciddi detal, işarə var. Axı, Novruzəli ilə ilk tanışlığımızda, ağzını açıb danışanda biz onu mağmun və məzlum birisi kimi yox, mövcud sosial şəraitlə barışmayan, içində yaşadığı mühitdəki sosial ədalətsizliyi

qəbul etməyən və ona tənqidi münasibət göstərən bir insan kimi tanıyırıq. Novruzəlinin sosial düşüncədən məhrumluğunu önə çəkməyi qarşısına məqsəd qoyan ədəbiyyatşünaslıq bütün hallarda onun Vəli xana dediyi "Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam..." – sözlərini ictimai, vətəndaşlıq düşüncəsindən məhrumluğunun əsas göstəricisi kimi dönə-dönə qabardır, təhlil müstəvisinə gətirib mənalandırır. Lakin Novruzəlinin birinci "söz"ünün arxasınca gələn ikinci "söz"ü bu "təkzibedilməz dəlil"i heçə çıxardığı üçün ədəbiyyatşünaslıq onun üstündə təfərrüatlı dayanmağı, qəhrəmanın vətəndaşlıq düşüncəsinin, sosial özünüdərkinin, sosial ədalətsizliyə etirazının, bu etirazı "söz"dən əmələ keçirmək üçün atdığı addımın mahiyyətinə varmağı lazım bilmir. Bu ikinci "söz" nədən ibarətdir? Vəli xanla Novruzəli arasındakı aşağıdakı dialoqa diqqət yetirək:

"Xan üzünü tutdu qonağa:

– Novruzəli, poçtxananı tanıyırsan?

Novruzəli cavab verdi:

– Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?

– Çox əcəb, nəçərnik divanxanasını ki, tanıyırsan?

– Bəli, xan, başına dönüm, tanıyıram, niyə tanımıram. Keçən həftə mən elə gəlmişdim nəçərniyin yanına şikayətə. Xan, and olsun sənin başına, bizi katda çox incidir. Əslinə baxsan bizim bu katdamız özgə tayfadandı; odu ki, bizi görməyə gözü yoxdu, keçən həftə mənim iki buzovum itmişdi. Getdim...".

Dialoqdan məlum olur ki, Novruzəli elə keçən həftə "nəçərnik divanxanası"na şikayətə gəlibmiş. Məqsədi də kəndxudanın onları incitməsi ilə bağlı "nəçərnik"ə şikayət etmək imiş. Novruzəlinin "nəçərnik divanxanası"na şikayətə gəlməsi bir ümumiləşdirici detal olaraq onun "razı" yox, birmənalı şəkildə "narazı" qəhrəman olduğunu sübut edir. Novruzəlinin divanxanaya gəlişi təhtəlşüur yox, düşünülmüş, dərk edilmiş hərəkətdir. Onun kənddəki sosial ədalətsizliklə nəinki barışmamasının, hətta bu ədalətsizliyə aktiv etirazının göstəricisidir. Dialoqdan görünür ki, Novruzəli bir kəndli olaraq haqqını bilir. Onun kəndxudadan şikayətə gəlişi də mövcud qanunlardan baş çıxartması haqqında düşünməyə əsas verir.

**Novruzəli – Vəli xan münasibətləri**

Bu münasibətlər Azərbaycan kənd burjuaziyası ilə kəndlisi arasındakı tarixi gerçəklikləri simvollaşdırmaq baxımından da kifayət qədər maraq doğurur.

Prof. Yaşar Qarayevin qənaətinə görə "möhtəşəm bir xarakter, şəxsiyyət və insan Novruzəliyə çevrilərkən" "şəxsiyyət olmaq haqqı"nı itirir. Novruzəlinin "şəxsiyyət olmaq haqqı"nı itirməsinə əsas kimi Y.Qarayev də daxil olmaqla əksər

ədəbiyyatşünaslar onun Vəli xana münasibətini və ona dediyi aşağıdakı sözləri əsas gətirirlər: "Bu nə sözdü, ay xan? Mən ölənə kimi sənə qulam...".

Ədəbiyyatşünaslığın ümumi rəyinə görə, bu sözlər Novruzəlinin xarakterinin qul psixologiyasına köklənməsinin göstəricisi, onun öz sosial hüquqlarını bilməməsi, vətəndaş düşüncəsindən, şəxsiyyət olmaq imkanından məhrumluğunun əlamətidir. Ədəbiyyatşünaslığın bu tipli təhlilləri Novruzəli – Vəli xan münasibətlərini sinfi müstəvidə qiymətləndirmədən təkan alır. Bu zaman onların münasibətlərinin milli zəminə söykənən iqtisadi və mənəvi, həmçinin psixoloji əsasları tamam unudulur. Ədəbiyyatşünaslıq təhlillərində xan tüfeyli və istismarçı sinfin nümayəndəsi kimi qəbul edilir, onun aşağı təbəqəyə (burada Novruzəliyə) münasibəti marksist fəlsəfənin əsaslandırdığı kimi, siniflərarası antoqonist ziddiyyətlər prizmasından şərh edilir. Vəli xan tüfeyli, istismarçı təbəqənin təmsilçisi olaraq Novruzəliyə (Novruzəlilərə) düşmən sinfin nümayəndəsi kimi təsvir edilir.

Ədəbiyyatşünaslıq bunu da etiraf edir ki, "xanın həqiranə gülüşü bizi hiddətləndirir; biz onun gülüş və qəhqəhələrini bir qədər də tündləşdirib, qəzəb hissi ilə yoğurub xanın öz üzərinə yağdırırıq" [2, s.56]. Bədii əsərdə özünə yer alan yuxarı təbəqə nümayəndələrinə ədəbiyyatşünaslığın nifrət dolu, ikrahedici baxış pafosu nəticə etibarı ilə ona gətirib çıxarır ki, bədii mətndə özünə yer alan yuxarı və aşağı təbəqə nümayəndələri ilə qarşılıqlı əlaqə və ünsiyyətinin heç bir mənəvi, psixoloji məqamları elmi təhlilə cəlb edilmir. Vəli xanın Novruzəliyə insani münasibəti, onların bir-birini başa düşüb anlamaq və dəyərləndirmək müstəvisində qarşılıqlı ünsiyyəti Məhəmmədhəsən əmi – Xudayar bəy münasibətləri ilə eyniləşdirilir. Ədəbiyyatşünaslıq Azərbaycan kəndlisinə münasibətdə Vəli xanla Xudayar bəy arasında köklü fərqi bir kənara qoyur, onu elmi təhlilə cəlb etməyə lüzum görmür. Məsələ burasındadır ki,Vəli xanın Novruzəliyə xoş münasibəti əsasında Vəli xanla Xudayar bəy arasında kəskin fərq dayanır. Müəllif bunun fərqinə varır, amma ədəbiyyatşünaslıq yox. Novruzəli ilə xanın münasibətlərini iqtisadi münasibətlərin xarakteri müəyyənləşdirir. Niyə düşünmürük və ya düşünmək istəmirik ki, Novruzəli, doğrudan da, qul psixologiyalı bir adamdırsa, onda o, kəndxudanın zülmkarlığını necə dərk edir, özünün bu zülmü haqq etmədiyini necə başa düşür? Qul psixologiyasına malik adam, müasir anlayışla desək, manqurt düşüncəli insan kəndxudanın zülmkarlığı barədə hakim dairələrə şikayət etmək, başqa sözlə, öz haqqını müdafiə etmək fikrinə düşə bilərmi? Şübhəsiz ki, xeyr. Maraqlıdır, kəndxudanın zülmünü heç bir tərəddüd etmədən yuxarı dairələrə çatdıran və aktiv şəkildə öz haqqını tələb edən Novruzəli niyə Vəli xana yanaşmalarında çevrilib tamam başqa adam olur. Ondan nəinki şikayət etmək, narazı qalmaq haqqında

düşünmür, hətta özünü ona borclu hesab edir, xanı özünün hamisi gözündə görür. İnsan təbiətinə, onun psixologiyasına az-çox bələdlik heç bir şübhə yeri qoymur ki, insan ona zülm edən, qanını soran kimsəyə heç vaxt aşağıdakı sözləri deməz:

" – Bəli, başına dolanım, xan, qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın!..".

Belə sözlər insanın dilinə daxili, ürəkdən gələn minnətdarlıq duyğularının birbaşa təlqini ilə gəlir. "Sənsiz mənim bir günüm olmasın" ifadəsi öz xarakterinə görə alqışdır. İnsanın insana sonsuz məhəbbət hissindən güc alır. Biz Novruzəlini cəsarətli, lazım gələndə öz haqqı, hüququ uğrunda çəkinmədən çarpışan bir insan kimi tanıyırıq. Kəndxudadan şikayəti də, poçt məmuruna qarşı hərəkətləri də qul təbiətinin, məzlumluğun onun xarakterinə yad olduğunu göstərir. Müəyyən münasibətlə Novruzəli özü də buna işarə edir: " – Niyə, mən uşaq deyiləm ki, kağızı özgəsinə verəm! Məni o qədər də xam bilmə. Heç nəçərnik də bu kağızı mənim əlimdən ala bilməz". Bu sözlər Novruzəlinin dilindən təbii bir duyğunun ifadəsi kimi çıxır və onun ümumiyyətlə özünəxas cəsarətli kəndli təbiətinə malik olmasından xəbər verir. Deməli, "nəçərnik"ə münasibətdə belə cəsarət nümayiş etdirmək gücünə malik bir insanın qarşısında xanın ikiqat əyilməsi qul psixologiyasının təzahürü sayıla bilməz. Bu, Vəli xan – Novruzəli əlaqələrinin hansısa iqtisadi münasibətlə tənzimləndiyini, bu tənzimlənmənin qarşılıqlı hörmətə əsaslandığını, mənəvi bağlılığa gətirib çıxardığını düşünmək üçün bizə əsas verir.

Biz Novruzəlinin yerini bu iqtisadi münasibətlər sisteminin içində arayırıq. Çünki hekayədə məsələnin bu tərəfinə açıq-aydın işarələr edilmişdir. Hekayədə oxuyuruq: "Xan çıxdı və gördü ki, qapını döyən xanın öz kəndlisi "İtqapan" kəndinin əhli Novruzəlidi. Bu şəxs çox vaxt xanın yanına gəlib-gedər və hər gələndə olmaz ki, undan, əriştədən, baldan, yağdan gətirməsin. Bu səfər də Novruzəli əliboş gəlməmişdi". Diqqətimizi o da çəkir ki, Novruzəlinin gətirdikləri xanın malikanəsində "sovqat" kimi qəbul olunur. Xanla nökər arasındakı dialoq bu baxımdan səciyyəvidir:

" – Xan, bu ulaq kimindi, bu şeyləri kim gətirib?

Xan cavab verdi:

– Ədə, o şeyləri yerbəyer elə! Oları bizə itqapanlı Novruzəli sovqat gətirib".

Hekayənin bütöv məzmunundan görünür ki, Vəli xan – Novruzəli əlaqələrində "ictimai yuxarı"nın "ictimai aşağı"ya istismarçı, zülmkar münasibətindən söhbət gedə bilməz. İlk növbədə, xanın gözütoxluğu, öz kəndlisinə hörmətlə yanaşması

diqqət çəkir. "A kişi, Novruzəli! Bu nə zəhmətdi çəkmisən?" sözləri xanın öz kəndlisinə insani münasibətinin ifadəsidir. Novruzəlinin gətirdiklərinin az-çoxluğu ilə də qətiyyən maraqlanmaması, onun gətirdiklərini həqiqətən sovqat şəklində qəbul etməsi xanın istismarçı, zülmkar xarakteri ilə bağlı düşünməyə heç bir əsas vermir. Bizə elə gəlir ki, Vəli xan haqqında "heç bir iş görmədən, zəhmət çəkmədən, hazır mədaxil hesabına yaşayan bir tüfeyli" kimi danışmağın vaxtı çoxdan keçmişdir [4, s.31]. Çünki hekayənin mətn materialı Vəli xanı bizə alicənab, gözütox, mədəni və işgüzar xarakterli bir insan kimi təqdim edir. Hekayədə Vəli xanın işgüzar bir insan olmasına işarə edən, onun daha çox iş həyatı ilə maraqlandığını sübut edən, Novruzəlinin sovqatının onun maddi təminatında əhəmiyyətli yer tutmadığını göstərən xəsiscəsinə işarə edilmiş, lakin çox səciyyəvi bir detal var. Bu detal xanın İrəvan səfərinin vacibliyi ilə bağlıdır: "Xan çox tələsirdi İrəvana getməyə, çünki xanı orada çox vacib işlər gözləyirdi". Xanın İrəvana səfərində işgüzar məqsəd öndədir. Onun arvadına qayğıkeş münasibəti, Novruzəlinin "ərköyün" hərəkətləri müqabilində səbrli və təmkinli davranışı, "ictimai aşağı"nın nümayəndəsi ilə mədəni rəftarı xanın ziyalı xarakteri haqqında fikir formalaşdırır. Hekayənin mətnaltı qatları bizə bunu deməyə əsas verir ki, belə müsbət xüsusiyyətlərə malik olan xanın öz kəndlisinə çox yaxşılıqları keçmişdir. Biz hekayədə Novruzəlini maddi təminatında heç bir problemi olmayan Azərbaycan kəndlisi kimi görürük. Ədəbiyyatşünaslığımızda da etiraf olunmuşdur ki, "onun bütün hərəkətləri, arzu və istəkləri sadə bir kəndli üçün səciyyəvidir. O, hər dəqiqə bir zəhmətkeş, təsərrüfatçı və iş adamı kimi görünür" [4, s.31]. Ədəbiyyatşünaslıqda onun iqtisadi cəhətdən təmin olunmasına, "zəruri olan hər şeyinin varlığına, bunun "gətirdiyi sovqatdan da aydın görünməsi"nə [Y.Qarayev] də işarə edilmişdir. Mətndə bəzi əlavə detallar da var ki, doğrudan da, Novruzəlinin bir kəndli kimi maddi cəhətdən problem yaşamadığını sübut edir. Elə isə onun maddi cəhətdən təmin olunmasının, əldə etdiyi iqtisadi imkanların mənbələri haqqında düşünmək qaçılmaz zərurətə çevrilir. Novruzəli – Vəli xan münasibətlərindəki məhrəmlik, Novruzəlinin öz ağasına sonsuz minnətdarlıq hissi bu "təminat"ın köklərini Vəli xana bağlayır. Məhz bu "bağlar" Vəli xan – Novruzəli münasibətlərini əks sosial təbəqələrin qarşıdurması yox, aşağı və yuxarı təbəqənin bir-birini başa düşməsi, ictimai şüurun inkişafı nəticəsində milli "ictimai yuxarılar"ın milli "ictimai aşağılar"a qayğı göstərməsi, milli tərəqqinin məhz bu cür milli birlik əsasında təmin olunacağına inamlarının təyin etməsi haqqında düşünməyə əsas verir.

## Nəticə / Conclusion

Beləliklə, Məhəmmədhəsən əmi və Zeynəb Mirzə Cəlilin nəsrinə etirazçı qəhrəmanlar kimi daxil olaraq eyni taleyi yaşayırlar. Lakin onlar bir-birinin təkrarı deyil. Məhəmmədhəsən əmidə sosial həyatda baş verənlərə münasibət daxili etiraz şəklində, Zeynəbdə isə açıq etiraz şəklində təzahür edir. Məhəmmədhəsən əmi və Zeynəb obrazlarından fərqli olaraq Novruzəli onlardan bir addım öndə dayanır. Bu "addımı" ilə o, Mirzə Cəlil nəsrinə şikayətçi qəhrəman statusunda daxil olur.

Məhəmmədhəsən əmi "nəçərnik divanxanası"na gələrkən daxilən son dərəcə qəzəbli olsa da, Xudayar bəydən şikayət etməyə özündə güc tapa bilmir. Novruzəli isə "nəçərnik divanxanası"na şikayət məqsədilə gələrək heç bir tərəddüd etmədən şikayətini edir. Bu fakta əsaslanıb Novruzəlinin Məhəmmədhəsən əmidən bir addım önə keçməsi və katdadan şikayət etməyə cəsarət etməsinin sosial səbəbləri haqqında düşünmək lazım gəlir. Bu zaman nəzərə alınması vacib olan şərt ondan ibarətdir ki, Məhəmmədhəsən əmi və Novruzəli fərqli sosial mühit və zamanları təmsil edirlər. Onların yaşadığı sosial zamanlar arasında onillik zaman fərqi dayanır.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Həbibbəyli İ. (2007). Ədəbi tarixi yaddaş və müasirlik. Bakı, Nurlan.
2. Hüseynov F. (1977). Adi əhvalatlarda böyük həqiqətlər. Bakı, Gənclik.
3. Qarayev Y. (1980). Realizm: sənət və həqiqət. Bakı, Elm.
4. Məmmədov M. (1963). Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı, Azərb. SSR EA nəşri.